# Yevlax şəhər Səməd Vurğun adına 5 nömrəli tam orta məktəb

**Niyazi RƏHİMOV,** *"Azərbaycan müəllimi"*
n.rahimov@muallim.edu.az

Məktəb şəhərin mərkəzində 1937-ci ildə inşa edilmiş binada yerləşir. Təhsil ocağı 1965-ci ildən orta, 1975-ci ildən isə tam orta məktəb kimi fəaliyyət göstərir və yarandığı gündən rayonun ən qabaqcıl təhsil müəssisələrindən biri kimi şöhrət qazanmışdır. İkimərtəbəli tədris binasından ibarət olan məktəbdə şagirdlərin müasir bilik, bacarıq və vərdişlərə yiyələnmələri üçün lazım olan hər bir şərait mövcuddur. Belə ki, geniş, işıqlı sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, informatika otaqları, kitabxana və idman zalı şagirdlərin ixtiyarına verilib. Bundan başqa, məktəb müasir standartlara cavab verən İKT avadanlıqları, istilik sistemi ilə təchiz edilib. Təhsil ocağının foyesində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, fənn müəllimləri və şagirdlərin nailiyyətlərini əks etdirən guşələr yaradılıb. Məktəbin məzunlarından 6 şəhidin xatirəsinə "Şəhidlər" guşəsi də var ki, bu da şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük əhəmiyyət kəsb edir.

## Tədrisin təşkili

Məktəbdə təlim Azərbaycan və rus dillərində aparılır. Hazırda məktəbdə 941 şagird təhsil alır ki, onların təlim -tərbiyəsi ilə 121 nəfər müəllim məşğul olur. "Təhsil haqqında" Qanuna uyğun olaraq məktəbdə ümumi təhsil 3 pillədən - ibtidai, orta ümumi və tam orta təhsil pilləsindən ibarətdir. I siniflərə şagird qəbulu müsahibə yolu ilə (şifahi sorğu) aparılır.

Məktəbin direktoru Zərxanım Əhmədovadır. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi məktəb rəhbərliyinin, bütün pedaqoji kollektivin əsas devizidir. Məktəb kollektivi innovasiyaların məktəbə, xüsusilə təlim prosesinə gətirilməsini zəruri hesab edir. Bundan başqa, şagird nailiyyətlərinin qiymətləndirilməsi və səriştəli müəllim hazırlığı prioritet sayılır. Odur ki, məktəbin uğurları şagird və müəllim nailiyyətləri üzərində qurulur. Bu məqsədlə şagird və müəllimlərin nailiyyət hədəfləri düzgün müəyyənləşdirilməsi qarşıya məqsəd kimi qoyulur.

Təhsil ocağı II-IV siniflərdə şahmat üzrə pilot layihəyə qoşulmuşdur. Hazırda 18 sinifdə şahmat tədris olunur.

Məktəbdə vaxtaşırı Pedaqoji Şuranın iclası keçirilir, müxtəlif məsələlər şurada müzakirə olunaraq yekun qərar verilir. Bundan başqa, dərs ilinin sonunda bir qayda olaraq hesabat konfransı keçirilir. Hesabat konfransına şəhər icra hakimiyyətinin, rayon (şəhər) təhsil şöbəsinin, KİV və digər məktəblərin nümayəndələri də dəvət olunur. Bu tədbir məktəbin idarə olunmasında demokratiklik, sistemlilik və şəffaflıq yaradan amillərə dəstək verir, eyni zamanda keyfiyyət göstəricilərini aşkara çıxarmaqda bir monitorinq, özünüqiymətləndirmə rolunu oynayır.

Məktəbdə əldə edilən nailiyyətlərin təminatçısı, islahatın və innovasiyaların əsas dəstəyi fənn müəllimləridir. Onlar fəal təlimi sistemləşdirmək üzərində səylə çalışır. İKT-dən, müasir təlim texnologiyaları və üsullarından bacarıqla istifadə edirlər. Direktor Z.Əhmədova hesab edir ki, səriştəli müəllim hazırlığına yol rəqabətdən başlanır. Odur ki, məktəbdə rəqabət mühiti formalaşdırılır. Bu məqsədlə məktəbin yeni saytının-"Müəllim saytı"nın yaradılması işinə başlanılmışdır. Layihənin müəllifi məktəbin tarix müəllimi, əməkdar müəllim Əmiraslan Bəşirovdur. Digər saytlardan fərqli olaraq bu sayt yalnız fənn müəllimlərinin "Reytinq cədvəli"ni özündə əks etdirəcəkdir. Bu məqsədlə məktəbdə ekspert qrupu yaradılıb. "Reytinq cədvəli" hər dərs ilinin sonunda fənn müəllimlərinin nailiyyət hədəfləri əsasında 20-dək meyara uyğun tərtib ediləcəkdir. Ekspert qrupu dərs ilinin sonunda məktəb hesabat konfransında "Reytinq cədvəl"i ilə bağlı nəticələri elan edəcəkdir.

## Nailiyyətlər

Təhsil ocağı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ildə imzaladığı müvafiq sərəncama əsasən "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub. Məktəbin məzunları Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi ali məktəblərə qəbul imtahanında yüksək nəticələr əldə edirlər. Təhsil müəssisəsini 2014-cü ildə eyni sinifdə bitirən məzunlardan Aysel Zeynallı və Maya Məşdizadə yekun attestasiyasının nəticələrinə görə təhsil nazirinin əmri ilə qızıl medalla təltif edilib və hər ikisi qəbul imtahanında yüksək bal toplayaraq respublikanın nüfuzlu ali məktəblərinə daxil olub. Medalçılardan Aysel Zeynallı 681 bal toplayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquq fakültəsinə daxil olub. O həm də Prezident təqaüdçüsüdür. Digər medalçı Maya Məşdizadə isə 567 bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olmuşdur.

Məktəbin şagirdləri respublika fənn olimpiadalarında da təhsil ocağının adını şərəflə təmsil edirlər. Belə ki, 2013-2014-cü tədris ilində məktəbin 2 nəfər XI sinif şagirdi Aysel Zeynallı və Maya Məşdizadə Azərbaycan tarixindən fənn olimpiadasının Respublika finalında IV yeri tutmuş və həvəsləndirici mükafata layiq görülmüşdür.

Təhsil müəssisəsinin şagirdləri ölkəmizdə keçirilən digər müsabiqə və yarışlarda da uğurlu çıxışları ilə yadda qalırlar. Şagirdlərdən Aytac Nağızadə Fövqəladə Hallar Nazirliyinin təşkil etdiyi "Fövqəladə hallar uşaqların gözü ilə" uşaq yaradıcılıq müsabiqəsində III yeri tutub. Məhəmməd Məmmədli, Şamxal Şükürzadə, Nağı Məmmədli isə Mədəniyyət və Turizm Nazirliyinin təşkil etdiyi "Azərbaycançılıq və milli şüur ideyası" mövzusunda əl işlərindən ibarət respublika sərgi müsabiqəsində "Diplom"a layiq görülmüşlər. 2016-cı ilin yanvarında məktəbin X sinif şagirdi Şəhla Musayeva "Milli mənəvi dəyərlər haqqında düşüncələrim" mövzusunda inşa yazı müsabiqəsində məktəbi uğurla təmsil etmiş və Təhsil Nazirliyi tərəfindən III dərəcəli diplomla təltif edilmişdir. Bundan başqa, IX sinif şagirdi Günel Əlili isə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu tərəfindən keçirilən Beynəlxalq Şagird Konfransının iştirakçısı olmuş və "Təşəkkürnamə" almış, həmçinin İngilis dili üzrə "Hərf-hərf de" (First National Endlish Spelling Bee) Respublika yarışmasında sertifikat əldə etmişdir.

Təhsil ocağının şagirdlərinin idman sahəsindəki nailiyyətləri də az deyil. Şagirdlərdən Emin Əlizadə 8 yaşadək oğlanlar arasında şahmat üzrə Azərbaycan birinciliyində II yeri tutmuş və Çexiyanın paytaxtı Praqa şəhərində keçirilən Avropa çempionatında iştirak etmişdir. Xan Cavadov isə Gənclər və İdman Nazirliyinin təşkil etdiyi idmanın karate növü üzrə keçirilən Respublika birinciliyində II yerə layiq görülüb. Nurlan Kərimov dünya çempionu Oleq Krapivinin şərəfinə güləş üzrə yeniyetmələr arasında Respublika turnirində II yeri, sərbəst güləş üzrə respublika rayonlararası turnirində isə I yeri tutub. Şagirdlərdən Nicat Süleymanov və Məhəmməd Qasımlı hər ikisi idmanın karate növü üzrə Respublika çempionatında bürünc medala layiq görülmüşlər. Onlar həmçinin çoxmübarizəli idman döyüş növləri üzrə respublika birinciliyində də gümüş medalla təltif olunmuşlar. Məktəbin digər şagirdi Samin Hüseynov da çoxmübarizəli idman döyüş növləri üzrə Respublika çempionatında II yerə layiq görülüb. Bundan başqa, Rəşad Abdullayev CİU-Cutsi Milli Federasiyanın yubileyinə həsr olunmuş Respublika çempionatında və Milli Jui-Jitsu Federasiyasının yubileyinə həsr olunmuş Respublika birinciliyində I yeri, Elvin Qarayev isə Azərbaycan Respublikası Həmkarlar İttifaqlarının Respublika Şahmat -dama klubu yarışlarında II yeri tutmuşlar.

Məktəbin XI sinif şagirdi Hüseyn İsmayılovun idman nailiyyətləri isə daha çoxdur. Hüseyn dəfələrlə ağırlıqqaldırma üzrə Respublika birinciliyinin qalibi, Zirvə İdman Klubları arasında Bakıda keçirilən Dünya birinciliyinin qalibi olmuşdur. Bundan başqa o, Antalyada keçirilən Beynəlxalq turnirdə III yeri, İsveçrədə isə birdəfəlik qaldırmada I, ümumi hesabda isə IV yerə layiq görülüb.

Tədris ocağının əldə etdikləri uğurların arxasında təbii ki, məktəbin işgüzar, peşəsinə hörmətlə yanaşan pedaqoji kollektivi durur. Onların arasında "Əməkdar müəllim", "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, kimya üzrə fəlsəfə doktoru və digər təltiflərə layiq görülənlər də vardır. Belə ki, məktəbin ali kateqoriyalı tarix müəllimi Əmiraslan Bəşirova "Əməkdar müəllim" fəxri adı verilmiş, o, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşdur. Bundan başqa, akademik Mehdi Mehdizadə mükafatı laureatı, "Qabaqcıl təhsil işçisi" döş nişanı kimi fəxri adlara və təltiflərə layiq görülmüşdür. Onun mərkəzi mətbuatda 100-dən artıq elmi, pedaqoji, metodiki məqaləsi dərc olunmuşdur. Bir neçə kitabçanın müəllifidir. Məktəbdə innovativ hazırlığa malik olan onlarla fənn müəllimi çalışır. Telli Kərimxanova (riyaziyyat), Sitarə Qarayeva (coğrafiya), Elza Əhmədova (ingilis dili), Aynurə Hacıyeva (Azərbaycan dili və ədəbiyyat), Aytəkin Quliyeva (Azərbaycan dili və ədəbiyyat), Şərafət Rəhimi (ibtidai sinif), Ülviyyə Ağayeva (kimya), Pərvanə Alıyeva (ingilis dili), Vüsalə Şükürova (informatika) və b. İKT-dən yüksək hazırlığa malik olmaqla yanaşı, rayon və respublika tədbirlərində uğurla iştirak edirlər. Məktəbin coğrafiya müəllimi Sitarə Qarayevanın 2015-ci ilin martında təşkil etdiyi "Gəl çıxaq seyrinə Ana Vətənin" rollu oyun tədbirində rayon ictimaiyyətinin, rayon (şəhər) məktəblərinin, informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər. Son 3 ildə məktəbin fənn müəllimlərindən 8 nəfərinin rayon (şəhər) məktəbləri ixtisas müəllimləri üçün keçirdiyi "açıq dərs"lər təhsil ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmışdır.

## "Kiçik Akademiya"

Məktəbdə xüsusi istedada malik şagirdləri aşkara çıxarmaq, yaradıcı tətbiqetməni istiqamətləndirmək məqsədilə "Əsasnamə"yə uyğun olaraq "Kiçik Akademiya" (KA) təsis olunmuşdur. KA-nın fənn üzrə bölmələri yaradılmışdır. Bu bölmələrə fənn müəllimləri hamilik (əlaqələndirici) edirlər. Bölmələrə IX-XI sinif şagirdlərinin seçdikləri ən istedadlı şagirdlər başçılıq edir. "Kiçik Akademiya"nın prezidenti və vitse-prezidenti təsis yığıncağında istedadlı şagirdlər sırasından 1 il müddətinə seçilir. Təşkilatı məsələləri və illik fəaliyyəti KA-nın yığıncağı həll edir. Bölmələr mövzu və tapşırıqları müstəqil seçir, sinifdənxaric və məktəbdənkənar tədbirləri müəyyənləşdirir, həyata keçirir, tədqiqatlar aparır, referatlar və məruzələr hazırlayır, münsiflər heyəti qarşısında təqdimat edirlər. KA-nın illik fəaliyyəti dərs ilinin sonunda yekunlaşdırılır. İl ərzində fərqlənən bölmə və ayrı-ayrı şagirdlər məktəb rəhbərliyi tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılır.

2014-cü ildə məktəb KA-nın tarix, coğrafiya, Azərbaycan dili və ədəbiyyat, ingilis dili bölmələri Gəncə şəhərinə yaradıcı ekskursiya etmişlər. Onlar ekskursiya proqramı çərçivəsində Gəncə darvazalarını və orada təşkil olunan tarix muzeyini, şah Abbas məscidini, Cavad xan türbəsini, Xan bağını, dahi şairimiz Nizami Gəncəvinin məqbərəsini, digər tarix və mədəniyyət abidələrini ziyarət etmişlər. Ekskursiyadan əldə edilən fotolardan ibarət məktəbdə güşə tərtib olunmuşdur.

## Əlaqələr, tədbirlər

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ilə məktəb arasında əməkdaşlıq bu təsisatın yarandığı ilk gündən başlanmışdır. 11 mart 2015-ci ildə Bilik Fondu ilə birgə Yevlax şəhərində "Tariximiz-Qan Yaddaşımız" mövzusunda çoxşaxəli bir tədbir keçirilmişdir. Tədbirin gedişində Balakən rayonu Humanitar və texniki təmayüllü liseyin nümayəndə heyəti ilə 5 nömrəli məktəbin nümayəndə heyəti arasında Bilik Fondunun icraçı direktoru Oktay Səmədovun iştirakı ilə "Qardaşlaşmış məktəblər" sazişi imzalanmışdır. Tədbir iştirakçıları məktəbin "Kiçik Akademiya"sının fəaliyyəti ilə tanış olmuş, tarix, coğrafiya, Azərbaycan dili və ədəbiyyat, riyaziyyat bölmələrinin hazırladıqları bülleten və sərgilərə baxmışlar.

Məktəb KA-nın bölmələri Yevlax şəhər tarix və Heydər Əliyev muzeyləri ilə daim əlaqə saxlayır və burada müxtəlif yönümlü tədbirlər keçirirlər.

Təhsil ocağında dialoq xarakterli tədbirlərə, rollu oyunlara diqqət artırılmışdır. Bu məqsədlə müəllim və şagirdlər daha çox "dəyirmi masa" və dialoq xarakterli digər tədbirlərə cəlb edilirlər.

Məktəbdə "İnci" rəqs qrupu fəaliyyət göstərir. Rəqs qrupu üzvləri vahid geyimlə təmin olunmuşlar. Bu qrup məktəb və şəhər tədbirlərində uğurla çıxış edir.














